# Mömin Nikolas:

## *İsaya sadiq qalan adam*



Müəllif: “Şəhidlərin Səsi”
Rəsmlər: R.F.Paoaviçini

# Mömin Nikolas:

## *İsaya sadiq qalan adam*

Rəsmlər R. F. Paoaviçini

First Edition Text Copyright 2006 The Voice of the Martyrs, Inc.
Second Edition Text Copyright 2010 The Voice of the Martyrs, Inc.
Illustrations Copyright 2006 The Voice of the Martyrs, Inc.

© 2014 The Voice of the Martyrs, Inc. for the Azerbaijani edition.
Translated by permission. All rights reserved.
ISBN 978-617-503-128-5

Kitab imanlılar cəmiyyətini Allahın təqib olunan övladları üçün duaya çağırmaq məqsədilə, qardaş və bacıların ianələri hesabına çap edilmişdir.

Kitab PULSUZ paylamaq üçün nəzərdə tutulub. Əgər kitab satılarsa, burada qeyd olunan ünvana məlumat verməyinizi xahiş edirik.

“Şəhidlərin Səsi” kommunist rejimlərində və İslam ölkələrində yaşayan bacı və qardaşlar da daxil olmaqla, etiqadlarına görə təqib olunan məsihçilərə xidmət edən qeyri-kommersiya təşkilatıdır. 1967-ci ildə inanclarına görə həbs cəzası çəkmiş rumıniyalı Riçard və Sabina Vurmbrand cütlüyü tərəfindən qurulan “Şəhidlərin Səsi” bütün dünyada nümayəndəliklər şəbəkəsinə malikdir. Təşkilat azad ölkələrdə məsihçi icmalarını təqib olunan kilsənin acınacaqlı vəziyyəti haqqında maarifləndirmək məqsədini daşıyır və Vurmbrandların təqib olunan bacı-qardaşlara yardım göstərmək üzrə baxışını təcəssüm etdirir.



...Eynsli və Çeyni!

Qoy Nikolasın böyük və güclü imanı
sizi İsaya sadiq qalmağa ruhlandırsın...
nəyin bahasına olursa olsun!

*Sevgilərlə,*

*ananız.*

...Nikolas kimi həbsə atılmaq və hətta
ölümə məhkum olunmaq təhlükəsi ilə üzləşəndə
belə, İsaya sadiq qalan, təqib edilən
bacı və qardaşlarımıza.

## *Müəllifdən*

Tarix boyu mömin Nikolasın həyatı barədə dünyada bir çox əfsanələr dolaşmışdır. Bu əfsanələr bu gün Santa Klaus kimi tanıdığımız, Miladda qırmızı kürkdə, maral və ya atlarla gələrək ağıllı oğlan və qızlara hədiyyələr çatdıran xeyirxah obrazın yaranmasına vəsilə olmuşdur. Bəs mifik Santa Klaus əslində kim olub?

Mirlikili Nikolas eramızın III əsrində, Roma imperiyasının tərkibində olan Likiya adlı bir əyalətdə anadan olub. Bu gün qədim Likiya Türkiyənin bir hissəsidir. Nikolasın 6 dekabr 343-cü ildə öldüyü güman edilir. Almaniya, İsveçrə və Hollandiya kimi dünyanın bir çox ölkələrində yaşayan müasirlərimiz bu günü "Mömin Nikolas Günü" kimi qeyd edirlər.

Məsələn, Almaniyada uşaqlar Nikolaus-Ştifel adlı çəkməni "Mömin Nikolas Günü" ərəfəsində giriş qapısının önünə qoyurlar və ümid edirlər ki, yaxşı əməllər etsələr, Nikolas onu hədiyyələrlə dolduracaq. Uşaqlar özlərini pis aparanda isə mütləq çəkmədə bir parça kömür tapırlar.

Tarix şahidlik edir ki, əsl Nikolas alicənab və əqidəli bir insan olub. O, varlı bir ailədə doğulub. Valideynləri vəfat etdikdən sonra ailənin var-dövləti Nikolasa miras qalmışdı. Nikolas bu mirası özünə sərf etmək əvəzinə, ehtiyacı olanlara kömək etmək üçün istifadə edir. Məsələn, indi danışacağımız rəvayətdə onun yoxsulluq və əziyyətlərdən xilas etdiyi üç bacıdan bəhs edilir.

Qızlarının ailə həyatı qurmaları üçün cehiz pulu tapa bilməyən ata onları fahişəxanaya qoymaqdan başqa çıxış yolu tapa bilmirdi. Bunu eşidən Nikolas qızların otağına gizli şəkildə içərisində qızıl olan kisələr atır. Bunu biləndə ata özünü sonsuz dərəcədə xoşbəxt hiss edir. O, qızlarının sirli xeyirxahının kim olduğunu öyrənir. Onda Nikolas atadan bu sirri heç kimə açmayacağına and içməsini xahiş edir.

Tarixdən Nikolasın taxıla olan tələbatın artması səbəbindən onun qiymətinin artması üçün anbarlarda saxlayan tamahkar hökmdara necə qarşı çıxdığı haqqında oxumuşuq. Həmçinin Nikolasın həmin cinayətkar hökmdar tərəfindən saxta ittihamla ölümə məhkum edilən üç günahsız insanın edamına müdaxilə etdiyini də bilirik.

Deyilənə görə, Nikolas cəlladın əlindən qılıncı alıb hər üç şəxsi azad edəndə məhbuslardan biri artıq edam edilmək üçün gətirilmişdi. Bu hadisə-

dən sonra insanlar Nikolası cəsarətinə görə göylərə qaldırırdılar.

Çoxlarına Nikolasın saleh əməlləri barədə məlum olsa da, onun Məsih üçün çəkdiyi əzabları haqqında az adam bilir. Roma imperatoru Diokletian hakimiyyətə gəldikdən bir müddət sonra (o, eramızın 284-cü ilindən 305-ci ilinə qədər hökmranlıq edib) məsihçilərə qarşı əvvəllər olduğundan daha dəhşətli təqiblərə başladı. İsanın ilahiliyinə olan inamından imtina etmədiyinə görə Nikolas həbs edilərək fiziki işgəncələrə məruz qaldı (bir mənbədə deyilir ki, onun dərisi və ətinin parçaları qızdırılmış dəmir maşalarla diri-diri qoparılmışdı).

Yevsevi özünün "Kilsə tarixi" əsərində bütün imperiyada kilsə rəhbərlərinin tutulub zindana atılmasını əmr edən bir imperator fərmanının verildiyini iddia edir. Yevsevi yazır ki, həbsxanalar kilsə rəhbərləri və xidmətçiləri ilə o qədər dolu idi ki, orada əsl cinayətkarlara yer qalmamışdı.

Diokletian kilsələri dağıtdı, Müqəddəs Yazıları müsadirə etdi və yandırdı. Məsihçiləri öldürmək romalılar üçün bir əyləncəyə çevrildi. Eramızın 303-cü ilində Diokletian kilsəyə əbədi olaraq son qoymağı planlaşdırırdı. Lakin onun cəhdləri uğursuz oldu. Məsih uğrunda şəhid olan imanlıların cəsarəti ona gətirib çıxardı ki, onların yerini çoxlu sayda digər imanlılar tutdular.

Eramızın 305-ci ilində bu və digər işlərində uğursuzluğa düçar olduqdan sonra Diokletian taxtdan imtina etdi. Bir mənbəyə görə, o, ömrünün qalan hissəsini kəndli həyatı yaşayaraq kələm yetişdirməklə məşğul oldu. Bəzi hesablamalara görə, Neronun dövründən eramızın 313-cü ilinə qədər 3 milyona yaxın məsihçi öldürülmüşdür.

Təqib dövrünün sona çatmasından sonra Nikolasın imanı ciddi sınaqlara məruz qalmağa davam etdi. Bu dəfə Arius kilsə daxilində İsa Məsihin ilahiliyini şübhə altına alan bidəti təbliğ etməyə başladı.

Ariusun yalançı təlimi (Arianlıq adlanır) hətta musiqiyə, məşhur ziyafət mahnılarının mətninə də salındı. Roma imperiyasının yeni hökmdarı Konstantin, digər məsələlərlə yanaşı, Ariusun təlimlərini müzakirə etmək üçün kilsə rəhbərlərini Nikeyaya topladı. Bu hadisə tarixdən bizə Nikeya Məclisi adı ilə tanışdır. Rəvayətə görə, Arius çıxışı zamanı İsa haqqında özünün biabırçı mahnılarından birini oxumağa başlayıb. Bu adamın Məsihi necə

təhqir etdiyini görmək istəməyən Nikolas isə ayağa qalxaraq Ariusun ağzının üstündən zərbə vurub. Orada olan hər kəs gördüklərindən şok yaşayıb!

İnsanlar Məsih haqqında həqiqəti müdafiə etməyin zəruriliyini başa düşsələr də, Məsih “düşmənlərinizi sevin” dediyi və dinc yaşamağı öyrətdiyi üçün belə davranışı qəbuledilməz hesab edirdilər. Beləliklə, Nikolasa yepiskop kimi xidmətini davam etdirməyə icazə verilmədi. (Hərçənd bəziləri onun sonradan kilsə rütbəsinə qaytarıldığını iddia edirlər). Lakin bu, Nikolasın xəstələrə qayğı göstərməsinə və ehtiyacı olanlara kömək etməsinə mane olmadı. Qeyd etmək vacibdir ki, bəziləri Nikolasın, ümumiyyətlə, Nikeya Məclisində iştirakını şübhə altına alır, buna sübut kimi isə onun adının toplantıda iştirak edənlərin siyahısında olmadığını göstərirlər.

Tarixdə məsihçilərin təqibi yalnız Nikolasın yaşadığı dövrü əhatə etmirdi. Məsih üçün şəhadət etməyi seçənlər daim təqib olunublar. Bu gün də kommunist rejimlərində və İslam ölkələrində məsihçilər İsa Məsihə inandıqlarına və Onun haqqında başqalarına şahidlik etdiklərinə görə təqib olunurlar. Kommunist ölkələrində Müqəddəs Kitabı öyrənmək üçün toplaşmaq və ya Müqəddəs Kitaba sahib olmaq qadağandır. Bunun üçün məsihçi bir neçə il həbs cəzası ala bilər. İslam ölkələrində məsihçiliyi qəbul edən müsəlmanlar ailə üzvləri tərəfindən rədd edilir və hətta cihadçılar tərəfindən küçədə güllələnirlər.

Və bu gün də, Mirlikili Nikolasın dövründə olduğu kimi, bir çox bacı-qardaşlarımız Məsihin ardınca getdiklərinə görə təqib olunurlar. Onlar həmvətənlərinə ləyaqətlə xidmət edir və seçim qarşısında qaldıqları zaman (Məsihlə zindanda olmaq və ya Məsihsiz olub azadlıqda qalmaq) Rəbbə olan imanlarını cəsarətlə müdafiə edirlər. Nikolasın hakimiyyətin təqibləri və kilsə daxilindəki münaqişələr qarşısında göstərdiyi cəsarət və səxavət faktı hər birimiz üçün nümunədir. Hər hansı bir məsihçi yanaşmasına görə, Nikolas əslində bir müqəddəsdir.

Ümid edirik ki, Nikolasın həyatı bizi yoxsullara səxavətlə xidmət etməyə, Ona və Onun xalqına qarşı getdikcə daha çox düşmənçilik edən mədəniyyətdə Məsihə olan imanımızı cəsarətlə müdafiə etməyə təşviq edəcək.





*“Onun adını Nikolas qoyaq”.*



*İsanın mövludundan 200 il sonra Likiya adlı bir diyarda, varlı bir ailədə oğlan uşağı dünyaya gəldi.*

“Gəlin onun adını Nikolas qoyaq”, — valideynləri dedilər. Onu çox sevirdilər.

*Nikolas hələ gənc olanda valideynləri öldü və bütün var-dövlətləri ona qaldı.*

“Mən bu puldan kasıblara kömək etmək üçün istifadə edəcəyəm”, — Nikolas qərar verdi və ehtiyacı olanlara kömək etməyə başladı.



*“Mən bu puldan kasıblara kömək etmək üçün istifadə edəcəyəm”.*





*Çox keçmədi ki, Nikolas ata və onun üç qızı haqqında eşitdi. Qızlar artıq ərə getmək yaşına çatmışdılar, amma atalarının cehiz üçün pulu yox idi.*

“Mən başıma nə çarə qılım?” — ataları şikayət edirdi. Seçimi olmadığından qızlarını evdən çıxarıb küçələrə salmağa qərar verdi.

*“Mən başıma*
*nə çarə qılım?”*



*Nikolas bu bədbəxt atanın dərdi barədə eşitdi. “Mən ona necə kömək edə bilərəm?” – Nikolas öz-özünə sual verdi. Tezliklə ağlına bir fikir gəldi.*

Ardıcıl üç gecə şəhərdə hamının yuxuya getdiyi vaxt gənc Nikolas kasıb atanın evinin divarına dırmaşaraq qızların hər birinin otağına bir kisə qızıl atdı. Hər gecə yerə düşən kisələrin içindəki qızıllar bərkdən cingildəyirdi: “Dzın-dzın!”







*“Bunu mənim etdiyimi heç kəsə deməyin!”*

*İki gecə dalbadal qızılın cingiltisi ata və qızları yuxudan oyatdığından üçüncü gecə öz gizli xeyirxahını görmək üçün ata yatmadı.*

Ata yenə cingilti eşidən kimi müəmmalı qəribi tutdu və gənci tanıdı.

“Bunu mənim etdiyimi heç kəsə deməyin!” — Nikolas sakitcə dedi.



Kişi söz verdi ki, bu barədə heç kəsə bir kəlmə də deməyəcək. O sevinirdi, çünki Nikolas qızlarını küçə həyatından xilas etmişdi və indi onlar ləyaqətli ailə həyatı qura bilərdilər.



*Yaşı artdıqca Nikolas Müqəddəs torpağı ziyarət etmək qərarına gəldi. O, İsanın doğulduğu Bet-Lexemi ziyarət etdi və hətta Xilaskarın dirildiyi boş məzarda dua etdi.*

“İsa həqiqətən Emmanueldir – Allah bizimlədir!” – Nikolas dedi. – “Həyatım artıq əvvəlki kimi olmayacaq”.

*“Həyatım artıq əvvəlki kimi olmayacaq”.*



*Tezliklə evə qayıtmaq vaxtı gəldi. Nikolas gəmiyə minərək Likiyaya uzun bir səyahətə çıxdı. Bir gecə güclü külək əsməyə və dənizi dalğalandırmağa başladı. Nikolas dərin yuxudan oyandı.*

“Düşünmürəm ki, sağ-salamat sahilə çata biləcəyik!” — kapitan xəbərdarlıq etdi. Nikolas güclü küləyin yırğaladığı gəminin göyərtəsində diz çökərək dua etməyə başladı: “Əziz İsa, lütfən, bizi qoru və sahilə çıxar, söz verirəm ki, quruya çatan kimi Sənə həmd edəcəyəm”. Dəniz sakitləşdi və gəmi yenidən Mira şəhərinə istiqamət götürdü.

“Sizin dualarınız bizi xilas etdi”, — gəmi heyəti sevincini gizlətmədi.





*“Əziz İsa, lütfən, bizi qoru və sahilə çıxar, söz verirəm ki, quruya çatan kimi Sənə həmd edəcəyəm”.*



*Gəmi möcüzəvi şəkildə Mirliki limanına çatdıqda Nikolas gəmidən sahilə tullandı və ən yaxın kilsəyə qaçdı.*

O, qaça-qaça kilsənin pilləkənləri ilə qalxıb qapını açdı. Nikolas xidmətçilərin çaşqın baxışları altında zəngin bəzədilmiş qurbangaha tərəf qaçdı və dedi: “Allahım, bizi dənizdəki fırtınadan xilas etdiyin üçün Sənə təşəkkür edirəm!” Lakin Nikolasın heç ağlına da gəlmirdi ki, verdiyi vəd həyatında gözlənilməz, böyük dəyişikliyə səbəb olacaq.


*“Allahım, bizi dənizdəki fırtınadan xilas etdiyin üçün Sənə təşəkkür edirəm!”*





*Nikolasın olduğu gəmi sahilə çatmamışdan bir gün əvvəl kilsə xidmətçiləri onlardan hansının Mira kilsəsinin yepiskopu olacağı barədə razılığa gələ bilməmişdilər.*

Uzun mübahisələrdən sonra onlardan biri demişdi: “Qoy yeni yepiskopu Allahın özü seçsin. Kilsənin qapısından ilk girən adam yepiskop olsun”. Həmin adam Nikolas oldu. Xidmətçilər ona yaxınlaşıb qarşısında diz çökərək elan etdilər: “Sən bizim yeni yepiskopumuzsan!”

*Bu hadisə Diokletian adlı imperatorun məsihçiləri Roma imperiyası üçün təhlükə hesab etməyə başladığı vaxtdan bir qədər əvvəl baş vermişdi. O, imperiyada yaşayan hər kəsə elan etdi ki, Allahın Kəlamına və ya Allah və Onun Oğlu İsa haqqında hər hansı digər yazılı mətnlərə sahib olmaq cinayətdir.*

“Tonqala atın!” — məmurlar insanların evlərində Müqəddəs Kitabı tapanda bunu tələb edirdilər. Məsihçilər sadəcə olaraq Həyat Kəlamının yanıb külə dönməsini kədərlə seyr edə bilirdilər. Onlardan bəziləri Müqəddəs Kitablarını gizlədə bildilər, bəziləri isə onlara sahib olduqlarına görə həbsxanaya göndərildilər.




“Tonqala atın!”



*“Həbsxanaya göndərin!”*

*Roma məmurları Müqəddəs Yazıları hər yerdə tapıb yandırarkən Nikolas bu çətin zamanda ehtiyacı olanlara kömək edirdi. Lakin yepiskopun Məsihə bənzəyən həyatı tezliklə nəzərə çarpdı və Nikolas həbs edilərək həbsxanaya atıldı.*





*Nikolas soyuq, qaranlıq kamerada günlərlə vaxt keçirdi. O, hər dəfə kamerasının qapısının açıldığını eşidəndə azadlığa çıxacağına ümid edirdi. Onlar Nikolasın ardınca gəldikləri vaxt onların qəzəbdən yanan üzlərini görəndə Nikolas nə baş verəcəyini anlamışdı.*

“Əgər imperatora səcdə etsən, həbsdən çıxacaqsan, amma Allaha ibadət etməyə davam etsən, burada qalacaqsan!” — mühafizəçi qışqırdı.

“Mən Allahdan başqa heç kimə boyun əyməyəcəyəm”, — deyə Nikolas cavab verdi. O, uzun müddət həbsxanada qaldı, burada onunla çox pis rəftar edirdilər.





*“Məsihçilərin hamısını həbsxanadan buraxın!”*



*Bir gün taxta Konstantin adlı yeni imperator çıxdı. O, məsihçiləri Roma imperiyası üçün təhlükə kimi görmürdü. Əksinə, inanırdı ki, ona qələbə qazanmağa kömək edən məhz məsihçilərin Allahıdır və bunun sayəsində imperiyada daha böyük hakimiyyət qazanıb.*

“Məsihçilərin hamısını həbsxanadan buraxın!” — deyə Konstantin əmr verdi və beləliklə Nikolas sərbəst buraxıldı. Bununla belə, Nikolasın sınaqları hələ tamamlanmaqdan çox uzaq idi.



*Arius adlı kilsə rəhbəri təlim edirdi ki, İsa yaradılıb və keçmişdə Allahla birlikdə əbədi olaraq mövcud olmayıb.*

Ariusun təlimlərinə inananlar Allahı ələ salan mahnılar oxuyurdular. Onların melodiyaları o qədər cəlbedici idi ki, insanlar onları küçələrdə, məktəblərdə, işdə və hətta kilsədə oxuyurdular.






*“Rəbbimizi rüsvay etməyə necə cürət edirsən!”*



*Ariusun təlimləri məsihçilər arasında İsa ilə bağlı fikir ayrılığına səbəb oldu, buna görə də imperator Konstantin Roma imperiyasında bütün kilsə rəhbərlərinin toplantısını çağırdı.*

Rəvayətə görə, toplantıda həm Arius, həm də Nikolas iştirak edirdi. Arius böhtanla dolu mahnını oxumağa başladı. Onun İsanı ələ salmasından qəzəblənən Nikolas ayağa qalxaraq Ariusun üzünə zərbə vurdu. “Rəbbimizi rüsvay etməyə necə cürət edirsən!” — Nikolas qışqırdı.



*Kilsə rəhbərləri şokda idilər!* Ariusun Xilaskar haqqında belə biabırçı mahnı oxumağa haqqı yox idi. Lakin kilsə rəhbərləri bilirdilər ki, məsihçilər sülh içində yaşamalıdırlar. Ona görə də Nikolasa dedilər: “Sən daha vəz edə bilməzsən”.


“Sən daha vəz edə bilməzsən”.



*Yepiskop kimi xidmət etmək imkanını itirən Nikolas kasıblara yardım, xəstələrə qulluq etməyi və uşaq evləri qurmağı dayandırmadı.*

O, ölənə qədər səxavətli ürəyi ilə xidmət etməyə davam etdi. Nikolas təxminən 343-cü ildə öldü.







*Yüz illər keçdi və Nikolasın həyatı əfsanələrdə təkrar-təkrar canlandı və bu, son nəticədə Santa Klaus – Milad ərəfəsində itaətkar oğlan və qızlara hədiyyələr çatdıran ağ saqqallı və qırmızı kürklü adam haqqında hekayənin yaranmasına töhfə verdi.*

Bu ad Hollandiyada Sinterklaas, İtaliyada Babbo Natale kimi tanınır. Bununla belə, yadda saxlamalı olduğumuz tarixi şəxsiyyət olan Nikolasdır. O, İsa Məsihi inkar etməkdən imtina etdiyi üçün çox əziyyət çəkdi və başqaları İsanı ələ salanda Ona sadiq qaldı.



*Bu gün dünyada məsihçilərin bir vaxtlar Nikolasla olduğu kimi həbsə atıldığı ölkələr var. Çində uşaqlara İsa haqqında öyrətmək qadağandır. Səudiyyə Ərəbistanında isə insanlar İncilə sahib olduqlarına görə həbs olunurlar.*

Onların həbs olunmalarına və icmadan qovulmalarına baxmayaraq, İsaya sadiq qalmaq cəsarəti bizi eyni həyatı yaşamağa və Nikolasın etdiyi kimi başqalarına İsa haqqında cəsarətlə şahidlik etməyə sövq edir.





*Miladda, siz Məsihin doğumunu qeyd edərkən və Santa Klaus haqqında mahnılar və hekayələr eşidərkən, Nikolasın hekayəsini, eləcə də bu gün Məsihə sadiq qalan dünyadakı saysız-hesabsız digər məsihçiləri xatırlayın. Qoy onlar bizi fədakar və cəsarətli olmağa təşviq etsinlər!*



## *Düşünmək üçün*

“Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq”.

***2 Tim. 3:12***

Mömin həyat sürmək nə deməkdir?

Niyə insanlar mömin həyat sürdüklərinə görə təqib olunurlar?

Niyə Nikolasın həyatını saleh hesab edirik?

Nikolas niyə təqib edildi?
Mömin həyat sürdüyü üçün?

Həyatınız dostlarınızla məktəbdə və evdəki münasibətlərinizdə Allahın xarakterini necə əks etdirə bilər?

Mömin həyat sürmək nə deməkdir?

## *Dua*

Ya Rəbb, bizdən əvvəl olmuş, bizə sədaqət və Allaha sevgi nümunəsi olan Nikolas kimi şahidlərə görə Sənə təşəkkür edirəm. Həyatımda Sənin xasiyyətini əks etdirməyi mənə öyrət ki, bununla başqaları Səni tanısın. Başqalarına Sənin haqqında şahidlik etdiklərinə görə təqib olunan imanlıları öz ölkələrində gücləndirməyə və ruhlandırmağa davam et.

***Amin.***

Əsrlər boyu onun haqqında çoxlu heyrətamiz hekayələr danışıldı. Lakin çoxları hələ də onun Məsihin yolunda hansı əzabları çəkdiyini bilmirlər.

Qəddar Roma imperatoru Diokletianın hakimiyyəti dövründə Nikolas İsanın ilahiliyinə inamından əl çəkmədiyi üçün həbsə atılır. Nikolasın həbs olunduğuna dair çoxlu sübutlar var. Onun dərisini və ətini qızdırılmış dəmir maşalarla diri-diri qoparsalar da, Nikolas Məsihdən üz döndərmədi. Sərbəst buraxıldıqdan sonra Nikolas xeyirxahlığı və cəsarəti ilə Məsihin ardınca getməyə davam etdi.

Təqiblər dövrü başa çatdıqdan sonra Nikolasın imanı bu dəfə kilsə daxilində ciddi sınaqlara məruz qalmağa davam etdi. Qəddarlığı ilə məşhur olan Diokletiandan fərqli olaraq məsihçiliyi qəbul edən imperator Konstantin taxta çıxdıqdan sonra yalançı təlim kilsəni işğal etmişdi. Məhz belə yalançı təlimə etiraz edən Nikolas Nikeya Kilsə Məclisində Məsihin müdafiəsinə qalxdı və Onun haqqında yalan məlumatlar yayan adamın üzünə zərbə vurdu.

Bu hadisədən sonra Nikolas daha yepiskop kimi xidmət edə bilmədi. Lakin baş vermiş bu hadisə Nikolasa uşaqlara və ehtiyacı olan digər insanlara kömək edərək Məsihin məhəbbətini bütün gücü ilə nümayiş etdirməyə mane ola bilmədi.

Nikolasın başına gələnlər hər birimiz üçün hökumətin təqibləri və kilsə daxilində münaqişələr zamanı cəsarət və alicənablıq nümunəsidir. İstənilən məsihçi yanaşmasına görə, Nikolas, əslində, bir müqəddəs idi.

Övladlarınız “Santa Klaus” əfsanəsinin arxasında gizlənən belə cəsarət və dözümlülük faktını biləndə heyrətlənəcəklər. Ümid edirik ki, mömin Nikolasın imanı sayəsində övladlarınızın və şəxsən sizin imanınız daha güclü və təsirli olacaqdır!

* “Santa Klaus” adındakı “Santa” müqəddəs deməkdir. “Klaus” isə Nikolas adının qısaldılmış formasıdır.

AZ

ISBN: 978-617-503-128-5
9 786175 031285